7 fevral 2020-ci il, cümə XALQ QƏZETİ

# Bakıda daha bir beynəlxalq təşkilatın regional mərkəzi yaradılacaq

**Fevralın 3-də keçirilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans barədə yazı hazırlayarkən bir jurnalist kimi öncə qələmə almalı olduğumuz məqamlar ondan ibarətdir ki, biz həmin gün müasir Azərbaycan həqiqətləri barədə çoxsaylı faktlar və rəqəmlərlə tanış olduq, uğurlar silsiləmizin siyahısındakı bir çox detallar barədə eşitdik, nöqsanlar qeyd edildi və qarşıda duran vəzifələr müəyyənləşdirildi.**

> *Ölkəmizin əhəmiyyətini, rolunu və bizə olan münasibəti əks etdirən son hadisə Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində Davos Forumu ilə Azərbaycan arasında Dördüncü Sənaye İnqilabı üzrə Bakıda regional mərkəzin yaradılması hadisəsidir. Bu, çox əlamətdar hadisədir. Çünki Davos Ümumdünya İqtisadi Forumu dünyada bir nömrəli forumdur, bundan yuxarı yoxdur.*
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***





Bir vətəndaş kimi, söyləməli və ya yazmalı olanda isə mən dövlət başçımızın konfransdakı yekun nitqinin son cümlələri ilə başlayardım. Belə ki, Davos Forumu ilə Azərbaycan arasında Dördüncü Sənaye İnqilabı üzrə Bakıda regional mərkəzin yaradılması barədə danışan Prezident həmin məsələyə xüsusi önəm verdiyini dilə gətirdi: "Bu, həm siyasi, həm iqtisadi sahədə nömrə birdir və bu bölgədə, Cənubi Qafqazda, Orta Asiyada Azərbaycanı mərkəz kimi seçmək, əlbəttə, böyük hadisədir, mən və forumun prezidenti niyyət protokolunu imzaladıq, indi işlər başlanacaq və Dördüncü Sənaye İnqilabında Azərbaycan lider olmalıdır. Necə ki, Davos Forumu bizi lider kimi görür, biz də lider olmalıyıq. Ona görə ki, bu, gələcək inkişafımız deməkdir".

Dövlət başçımız elə oradaca Azərbaycan hökumətinin və istənilən vətəndaşımızın qarşısına vəzifə qoydu ki, biz elmi tərəqqini, inkişafı təmin etməliyik, ölkəmizi gələcəyə aparmalıyıq, müasirləşdirməliyik: "Beləliklə hesab edirəm ki, bu hadisə bizim növbəti uğurumuzdur, növbəti qələbəmizdir. Əminəm ki, bundan sonra qələbələrimizin sayı çox olacaq".

Prezident konfransdakı yekun nitqinin əvvəlində isə ümumiyyətlə, qarşıda duran vəzifələr barədə danışmış və demişdir ki, ölkəmizin tələbatı, əhalisi, sənaye potensialı artır, yeni müəssisələr istifadəyə verilir. Ona görə infrastruktur layihələrinin icrası bundan sonra da təmin edilməlidir.

Təbii ki, müasir infrastruktur layihələri dedikdə, yada düşən ilk məqam məhz ölkənin yol təsərrüfatının yeniləşdirilməsi üçün atılan addımlar olur. Yeri gəlmişkən xatırladım ki, müasir Türkiyə Cümhuriyyətinin qurucusu olmuş Mustafa Kamal haqqında olan yazılarda onun bəzi kəlamları verilir. Həmin kəlamlardan biri belədir ki, məmləkəti baş kəndlə ( paytaxtla) calayan yolların yeniləşdirilməsi təkcə gedişgəlişin sürətləndirilməsinə deyil, həm də cümhuriyyətin inkişafının sürətləndirilməsinə xidmət edəcək.

Bu prinsip həm ulu öndər Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin gündəlik fəaliyyətinin mühüm tərkib hissələrindən biridir. Prezident adıçəkilən konfransda xatırlatdı ki, bu gün ölkəmizdə avtomobil yollarının çəkilişi ilə bağlı bir neçə önəmli layihə həyata keçirilir. Onlardan biri Gəncə–Gürcüstan sərhədi avtomobil yolunun dörd zolağa genişləndirilməsidir: "İşlər gedir və əminəm ki, başa çatacaq. Sumqayıtdan Rusiya sərhədinə gedən yeni dördzolaqlı yolun tikintisi aparılır və hesab edirəm ki, ilin sonuna qədər bu yol da istifadəyə veriləcək. Astara–İran sərhədi avtomobil yolunun tikintisi də gündəlikdədir. İndi magistral yol tam yeni məcra ilə cənub istiqamətinə gedir. Ancaq Astara şəhərinin içərisindən keçir. Ona görə həm vətəndaşlar üçün narahatlıq yaradır, həm də ki, yükburaxma qabiliyyəti aşağı düşür. Ona görə Astara şəhərinə girmədən rayonun ərazisindən İran sərhədinə qədər yeni magistral yolun çəkilişi, o cümlədən avtomobil körpüsünün tikintisi nəzərdə tutulur. Bu layihə də bu ilin sonuna qədər başa çatmalıdır… Bütövlükdə bu il min kilometr avtomobil yolunun çəkilişi nəzərdə tutulur".

Hakimiyyətə gəldiyi ilk gündən etibarən "Bizim əsas məqsədimiz Azərbaycan xalqına, ölkə əhalisinə xidmət etməkdən ibarət olacaq" – deyən Prezident İlham Əliyev insan amilini hər gün, hər addımda bütün vəzifələrdən üstün tutduğunu sübut edib. Təbii ki, Azərbaycan kimi su ehtiyatları az olan ölkədə içməli su məsələsi insanların əsas problemi idi. İndi isə həmin problem, demək olar ki, öz həllini tapıb.

Prezidentin yekun nitqində bu məsələyə də xüsusilə toxunulur və qeyd edilir ki, bu günə qədər ölkəmizin cəmi beş şəhərində içməli su və kanalizasiya layihələri başlamamışdır: "Yəni, bütün qalan şəhərlərdə bu işlər ya tamamlanıb, ya da ki, icradadır. Ona görə bu beş şəhərin içməli su problemi nəzərə alınmalıdır. Bu ildən bu layihələrin icrasına start verilməlidir. Əminəm ki, yaxın gələcəkdə ölkəmizdə bir dənə də şəhər olmayacaq ki, 24 saat ərzində Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə təmin edilməsin. Eyni zamanda, biz bu il suvarma üçün 400-dən çox subartezian quyusunun qazılmasını təmin etməliyik. Bu quyuların sayı ildənilə artır, tələbat var və biz bunu edəcəyik. Bu, dövlət investisiya proqramında nəzərdə tutulub".

Dövlət başçımız Azərbaycan insanının həyatının yaxşılaşdırılması yollarından biri kimi ətraf mühitin təmizlənməsini və ekoloji tarazlığın bərpasını da mühüm vəzifə kimi qarşıya qoyur. Deyə bilərik ki, son illərdə bu istiqamətdə çox böyük işlər görülüb. Bakı sakinləri və qonaqlar bunu hiss edirlər ki, havanın keyfiyyəti böyük dərəcədə yaxşılaşıb: " Çünki biz havanı çirkləndirən bir çox mənbələri ləğv etdik. Onlardan biri Bibiheybət zonası idi, hansı ki, o, ekoloji fəlakət mənzərəsi idi. İndi orada park salınıb, idman qurğuları, xiyabanlar yaradılıb, bulvar o zonaya qədər uzadılıb. İkincisi, havanı, ekologiyanı böyük dərəcədə çirkləndirən "Qara şəhər" idi. İndi onun yerində "Ağ şəhər" yerləşir. Bu da böyük şəhərsalma layihəsidir. Yaxın gələcəkdə neftayırma zavodunun o ərazidən köçürülməsi nəticəsində həm bulvarın uzunluğu artacaq, həm də o zonada ekoloji vəziyyət daha da yaxşılaşacaq. Əlbəttə, Balaxanı zibilxanası havanı, demək olar ki, zəhərləyirdi. Çünki orada yanan məişət tullantılarının söndürülməsi mümkün deyildi. Hazırda orada böyük zibilyandırma zavodu və çeşidləmə poliqonu fəaliyyət göstərir. Bu ərazi ekoloji təmiz zonaya çevrilib".

Dövlət başçımız hələ ilin əvvəlində demişdi ki, 2020-ci ildə sosial infrastrukturla bağlı önəmli addımlar atılacaq. Onlarla məktəb, tibb müəssisəsi tikiləcək, təmir ediləcəkdir. Fevralın 3-də keçirilən konfransda isə həmin tezislərin daha da konkretləşdirilmiş variantı ilə tanış olduq. Prezident qeyd etdi ki, bu il iki Olimpiya İdman Kompleksinin açılışı nəzərdə tutulur. Bu il beş "ASAN xidmət" mərkəzi istifadəyə veriləcək və beləliklə, "ASAN xidmət" mərkəzlərinin sayı 21-ə çatacaq. Ancaq, əlbəttə, bu proses davam etdirilir: "Bildirməliyəm ki, beş mərkəz bu il istifadəyə veriləcək, bundan əlavə daha altı mərkəzin açılışı da gündəlikdədir. Onlardan ikisi Bakıda tikiləcək və beləliklə, Bakıda mərkəzlərin sayı yeddiyə çatacaq. Çünki indi bəzi mərkəzlərdə növbələr yaranır. Biri Gəncədə. Gəncədə ikincisi olacaqdır. Biri Sumqayıtda, orada da ikincisi olacaqdır. Biri Lənkəran, biri isə Salyanda. Beləliklə, bu proqram maksimum 2021-ci ilin sonuna qədər başa çatmalıdır, bəlkə ondan da tez. Beləliklə, "ASAN xidmət" mərkəzlərinin sayı 27-yə çatacaq".

"DOST" mərkəzlərinin yaradılması daha geniş vüsət alacaq. Artıq iki mərkəz keçən il istifadəyə verilib və ümumiyyətlə, 30-dan çox "DOST" mərkəzinin yaradılması nəzərdə tutulur.

Yuxarıda qeyd etdiyimiz məsələlər ya iqtisadi, ya da sosial-iqtisadi xarakter kəsb edirsə, dövlət başçımızın toxunduğu növbəti məsələ sosial, sosial-siyasi və bir çox hallarda sosial-mənəvi cəhətdən qiymətləndirilir. Belə ki, qeyd etmək istədiyimiz növbəti istiqamət şəhid ailələri üçün tikiləcək mənzillər məsələsidir. Xatırladaq ki, keçən il 934 şəhid ailəsinə mənzil verilmişdir. Bu il göstəriş verilib ki, bu rəqəm artırılsın və ən azı 1500 şəhid ailəsi dövlət tərəfindən gözəl evlərlə, mənzillərlə təmin ediləcək: "Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına gəldikdə isə bu il yenə bu sahədə də rekord il olacaq. Çünki bu il 7 min köçkün ailəsi üçün mənzillərin, evlərin verilməsi nəzərdə tutulur. Keçən il bu rəqəm 5 min idi. Beləliklə, təqribən 30-40 min köçkün yeni evlərlə təmin ediləcəkdir".

Beləliklə, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə növbəti Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfrans, əslində, ölkə həyatının bütün sahələri üzrə görülmüş işlərə həqiqi bir nəzər salmaq imkanı yaratdı. Görülmüş işlərə həm dostlarımız, həm də bədxahlarımız nəzər sala bildilər və məlum oldu ki, Azərbaycan dövləti məhz ölkə vətəndaşına xidmət edir və edəcək.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***